# "Əsgər marşına Aşiq qəhrəman" kitabının II hissəsinin təqdimatı keçirilib

**Naxçıvanda Kəngərli Rayon İcra Hakimiyyəti və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə şəhid Ülvi Cəfərovun əziz xatirəsinə həsr olunmuş gənc yazar İlkanə Hüseynovanın "Əsgər marşına Aşiq qəhrəman" adlı kitabının II hissəsinin təqdimatı və anım mərasimi keçirilib.**



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Vətənimizin azadlığı və suverenliyi uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov şəhidlərimizin göstərdikləri misilsiz qəhrəmanlıq nümunələrindən geniş bəhs edib. O vurğulayıb ki, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi və xalq-ordu birliyi sayəsində mümkün olub. Rayon rəhbəri qeyd edib ki, şəhidlərimizin şərəfli döyüş yolu dövlətimizin gücünün, xalqımızın yenilməz iradəsinin bariz nümunəsidir. Bildirib ki, onların xatirəsinin daim uca tutulması, ailələrinə diqqət və qayğı göstərilməsi hər birimizin mənəvi borcudur. O əlavə edib ki, belə tədbirlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində, milli-mənəvi dəyərlərə bağlı böyüməsində mühüm rol oynayır və qəhrəmanlarımızın adını yaşatmaq baxımından xüsusi əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən şəhid anası İradə Quliyeva şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, şəhidlərimizin qanının yerdə qalmadığını və onların qəhrəmanlıq salnaməsinin daim yaşayacağını qeyd edib.

Vətən müharibəsi qazisi Turqay Məhərrəmov və Qabıllı kənd Kitabxanasının direktoru Xuraman Cəfərli çıxışlarında şəhidlərimizin igidliyindən, döyüş meydanında göstərdikləri rəşadətdən söz açıb, təqdim olunan kitabın əhəmiyyətini yüksək qiymətləndiriblər.

Gənc yazar İlkanə Hüseynova müəllifi olduğu kitab haqqında ətraflı məlumat verib, kitabın ərsəyə gəlmə məqsədindən danışaraq şəhid Ülvi Cəfərovun keçdiyi igidlik yolunun gələcək nəsillər üçün örnək olduğunu bildirib. Müəllif qeyd edib ki, kitabın əsas məqsədi qəhrəmanlıq tariximizi yaşatmaq və şəhidlərimizin xatirəsini ədəbi formada gələcək nəsillərə çatdırmaqdır.

Tədbir çərçivəsində şəhid Ülvi Cəfərovun həyat və döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirilib, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 1 "B" sinif şagirdləri tərəfindən "Vətən oğlu" adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

Sonda şəhid Ülvi Cəfərovun atası Habil Cəfərov çıxış edərək övladının xatirəsinə göstərilən diqqət və ehtirama görə təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirib, şəhid adının yaşadılmasının ailə üçün böyük qürur və təsəlli mənbəyi olduğunu vurğulayıb.

*Səhifəni hazırladı:*
***Bəxtiyar Əliyev***
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*